# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 36** **Bakı şəhəri, 8 fevral 2017-ci il**

**“Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın, “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 568; 2012, № 4, maddə 388, № 5, maddə 492; 2013, № 3, maddə 331, № 8, maddə 1003; 2015, № 6, maddə 787; 2016, № 3, maddə 620) ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. “2. Humanitar və sosial ixtisaslar qrupu” bölməsinin “060204 Jurnalistika” ixtisasına “- Televiziya və radio yayımları menecmenti” sətrindən sonra “- İdman jurnalistikası” sətri əlavə edilsin.

2. “8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu” bölməsinin “060802 Bədən tərbiyəsi və idman” ixtisasında “- Bədən tərbiyəsi və idmanda tibbi-bioloji təminat və reabilitasiya” sətrindən “və reabilitasiya” sözləri çıxarılsın və həmin sətirdən sonra “- İdman tibbi və reabilitasiya” sətri əlavə edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***